# "Ümumi dilçilik" dərsliyinin təqdimat-müzakirəsi








Aprel ayının 17-də Azərbaycan Dillər Universitetində akademik Nizami Cəfərovun "Ümumi dilçilik" dərsliyinin təqdimat-müzakirəsi keçirilmişdir. Məclisi giriş sözü ilə açan Universitetin Ümumi dilçilik kafedrasının müdiri, professor Azad Məmmədov dərsliyin akademik Afad Qurbanov və akademik Ağamusa Axundovun keçən əsrin 70-ci illərində nəşr olunmuş məşhur dərsliklərindən sonra bu sahədə ilk təşəbbüs olduğunu qeyd etmişdir.

ADU-nun rektoru, akademik Kamal Abdulla dilçilik fənləri içərisində ümumi dilçiliyin əhəmiyyəti barədə danışmış, dərsliyin məziyyətlərini göstərmiş, tövsiyələrini vermişdir.

Tanınmış dilçi-mütəxəssislər - Adil Babayev, Məsud Mahmudov, Nadir Məmmədli, İlham Tahirov, Fikrət Cahangirov, Jalə Qəribova, Misgər Məmmədov və Qismət Cəfərov çıxış edərək dərslik barədə mülahizələrini söyləmişlər.

Məclisin sonunda müəllif yüksək səviyyəli təqdimat-müzakirə üçün həmkarlarına minnətdarlıq etmiş, mübahisəli məsələlərə aydınlıq gətirməyə çalışmışdır.